**AUDİT 2023, 1 (39), səh. 5-12.**
**AUDIT 2023, 1 (39), pp. 5-12.**
**АУДИТ 2023, 1(39), стр. 5-12.**

**DOI: 10.59610/bbu1.2023.5-12**

*Abbasov İbad Musa oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Bakı Biznes Universiteti,*
*E-mail:rektor@bbu.edu.az;*
*Heydarov Cavidan Rəsul oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: javidanheydarov@gmail.com*
*©Abbasov İ.M., Heydarov C.R., 2023*

***«Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır».***

**Ümummilli Lider Heydər Əliyev**

**UOT - 378.1**

# HEYDƏR ƏLİYEVİN TƏHSİLDƏ KEYFİYYƏT SİYASƏTİ

## X Ü L A S Ə

Tədqiqatın məqsədi dünyada gedən qlobal proseslər və IV Sənaye İnqilabının nəticələri olan rəqəmsal texnologiyalar, iş dünyasının yeni tələbləri və bu istiqamətdə uzaq gələcəyə hesablanmış peşə bacarıqlarına dair beynəlxalq qurumların çağırışları nəzərə alınmaqla ölkəmizin təhsil sistemində, xüsusilə ali təhsildə keyfiyyətli təhsili təmin etmək və dünya təhsil sisteminə inteqrasiya yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Açar sözlər:** ali təhsildə keyfiyyət təminatı, daxili keyfiyyət təminatı, xarici keyfiyyət təminatı, təlim texnologiyası, peşə bacarıqları.

## G İ R İ Ş

Təhsil haqqında çox fikirlər söylənilib və bu proses davam edir. Çünki o, özündə bəşəri dəyərləri və zəngin ənənələri ehtiva edən əsas sosial institutlardan biridir. Təhsilin qarşısında duran ümdə vəzifələrdən biri zaman və məkandan asılı olmayaraq cəmiyyətin və dövlətin mənafeyinə xidmət edən şəxsiyyətlərin milli ruhda formalaşdırılmasından ibarətdir. Təbii ki, sosial-iqtisadi münasibətlər dəyişdikcə, təhsilin qarşısında duran məqsədlər və ona olan tələblər də dəyişir. XX əsrin sonlarında Sovet İmperiyasının dağılması ilə öz dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında yeni dövlət quruculuğunun inkişafı istiqamətində aparılan islahatlar nəticəsində baş verən dəyişikliklər təhsildən də yan keçməmişdir. Qeyd etmək lazımdır ki, müstəqilliyimizin ötən 30 ilindən çox dövründə təhsillə bağlı 320-yə yaxın normativ-hüquqi aktlar və normativ sənədlər qəbul edilmişdir [1]. Onların bir hissəsi milli təhsilimizin bütün pillələrinin hüquqi bazasının möhkəmləndirilməsinə, böyük bir hissəsi təhsil işçilərinin sosial-iqtisadi problemlərinin həllinə və rifahının yüksəldilməsinə, bir hissəsi isə təhsildə islahatlara və təhsilin inkişafına yönəldilmişdir. Bütün bunlar müstəqil dövlətimizin təhsil sisteminin hüquqi bazasının möhkəmləndirilməsi və sosial-iqtisadi inkişafı üçün münbit zəmin yaratmışdır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və onun layiqli davamçıçı Möhtərəm Cənab Prezidentimiz İlham Əliyev tərəfindən təhsil sahəsində aparılan

**AUDİT 2023, 1 (39), səh. 5-12.**
**AUDIT 2023, 1 (39), pp. 5-12.**
**АУДИТ 2023, 1(39), стр. 5-12.**

ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində ölkəmizin şəhər və kəndlərində ümumilikdə 3500-ə ya-xın məktəb tikilmiş, bərpa edilmiş və ya yenidən qurulmuşdur. Bu, təxminən Azərbaycanın bütün kateqoriyalarından olan ümumi məktəblər şəbəkəsinin üçdə ikisindən çoxdur. Etiraf et-mək lazımdır ki, bugün Respublikamızda maddi-texniki bazası müasir tələblərə cavab verməyən məktəbləri tapmaq çox çətindir. Hazırda məktəblərimiz nəinki müasir bina və tikililərlə, onlar, həmçinin ən müasir texniki tədris vasitələri ilə və tədris-metodik vəsaitlərlə təchiz edil-mişlər.

Təhsildə aparılan islahatlar nəticəsində təhsilin bütün pillələrində xüsusi mülkiyyətə əsaslanan rəqabətqabiliyyətli alternativ özəl təhsil sistemi yaranmış, formalaşmışdır. Ali təhsilin forma və məzmununda dəyişiklik edilərək dünya təhsil sisteminə uyğun ikipilləli bakalavriat və magistratura səviyyələri üzrə ali təhsil sistemi formalaşdırılmışdır. Ölkəmizdə ali təhsilin Avropa təhsil sisteminə inteqrasiya olunması istiqamətində müvafiq praktiki addımlar atılmışdır. Ölkəmiz ali təhsil sahəsində 2005-ci ildən Boloniya prosesinə qoşulmuşdur [2]. Təhsilin fasiləsizliyini və əlçatanlığını təmin etmək üçün subbakalavr səviyyəli mütəxəssislərin imtahansız ali təhsilin bakalavriat pilləsində təhsilini davam etdirməsi üçün azad seçimi təmin edilmişdir. Gənclərimizin ali təhsil almalarını təmin etmək, tələbələrin təhsilə marağını daha da artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 17 iyun 2021-ci il tarixli Fərmanı ilə Təhsil Tələbə Krediti Fondu təsis edilmişdir [3].

Eyni zamanda istedadlı gənclərin xaricdə təhsil alması ilə bağlı təxminən son 20 ili əhatə edən 3 dövlət proqramı - "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" və son olaraq "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" qəbul edilmişdir [4]. Bu dövlət proqramları nəticəsində 5000-dən çox gənc dünyanın ən nüfuzlu universitetlərində təhsil almışdır və bu proses hazırki dövrdə də uğurla davam etdirilir.

Bütün bunlara baxmayaraq təhsilimizin, xüsusilə də ali təhsilin keyfiyyəti, rəqabətqabiliyyətliliyi, hazırlanan mütəxəssislərin peşəkarlıq səviyyəsi və sair bu kimi vacib məsələlər zaman-zaman obyektiv və subyektiv tənqidə məruz qalır. Düşünürük ki, qeyd olunan bu və ya digər məsələlər üzrə müzakirə aparmağa ehtiyac vardır. Çünki dünyada gedən proseslər, IV Sənaye İnqilabının yaratdığı innovativ texnologiyalar, ictimai həyatımızın bütün sahələrinə nüfuz edən rəqəmsallaşma və sair bu kimi yeni trendlər, yaxın və uzaq gələcəyə hesablanan peşə bacarıqlarına dair beynəlxalq çağırışlar təhsilin məzmun və mahiyyətində köklü dəyişikliklər etməklə ali təhsildə keyfiyyət təminatını zəruriləşdirir. Daha doğrusu, Ulu Öndər Heydər Əliyevin təbirincə desək, ölkəmizin gələcək inkişafı gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır.

Etiraf etmək lazımdır ki, qarşıdakı hədəfi düzgün təyin etmədən və bu hədəfə doğru texnoloji yol xəritəsini dəqiq qurmadan hər hansı bir sahədə məqsədə çatmaqla böyük uğur əldə etmək mümkün deyildir. Sual olunur, biz gənclərə nəyi öyrətməliyik? Bugün dünya çox sürətlə dəyişir. XX əsrdən fərqli olaraq ali təhsilin qarşısında duran bəşəri dəyərlərlə yanaşı, XXI əsrin tələblərinə uyğun müxtəlif sahələrin ali peşə bacarıqları, innovativ və rəqəmsal texnologiyaların mənimsənilməsi, yüksək informasiya texnologiyalarından istifadə etmək bacarıqları, müasir idarəetmə kompetensiyaları və sair bu kimi peşə bacarıqları təhsil proqramlarının predmetinə çevrilməlidir. Qeyd olunanların və digər aktual məsələlərin gənclərimizə necə öyrədilməsinə gəldikdə isə bu, yeni təlim texnologiyaları və təhsildə keyfiyyət təminatı ilə bağlıdır.

Məsələyə aydınlıq gətirmək üçün fikrimizcə bir-birilə sıx bağlı olan bu iki anlayışın

**AUDİT 2023, 1 (39), səh. 5-12.**
**AUDIT 2023, 1 (39), pp. 5-12.**
**АУДИТ 2023, 1(39), стр. 5-12.**

məntiqi izahına ehtiyac vardır. Keyfiyyət insan cəmiyyəti yarandığı gündən hazırki dövrə qədər ictimai-iqtisadi formasiyaların dəyişməsindən asılı olmayaraq tarixi inkişafın bütün dövrlərində həmişə diqqət mərkəzində olub və bügun də aktualdır. Keyfiyyət bütün sahələrə şamil edilir. Yəni istehsal, yerinə-yetirilən iş və xidmətlərin bütün növlərinə şamil edilən keyfiyyət amili bir iqtisadi kateqoriya hesab olunur. Bu anlayışa müxtəlif yanaşmalar mövcuddur. Müxtəlif mənbələrdə alimlərin, filosofların və müxtəlif sahələrin tədqiqatçılarının yanaşmalarını ümumiləşdirdikdə biri-birinə oxşar bir neçə fikir üzərində dayanmaq mümkündür. Bunları qruplaşdırdıqda keyfiyyət anlayışı ehtiyacların ödənilməsi, müştəri məmnunluğu, tələbin ödənməsi, müştəri ehtiyaclarını öncədən görmək, rəqabətqabiliyyətliliyi, müvafiq standartlara uyğunluğu və sair bu kimi fikirlərlə izah edilir. Bu mənbələrin içərisində Oxford ingilis lüğətində keyfiyyət mükəmməllik dərəcəsi kimi qeyd edilir. Keyfiyyətə dair bu anlayış daha təkmil, daha əhatəli, daha məzmunlu və daha məntiqli hesab edilə bilər. Çünki, sifarişlərin icra nəticəsinin müvafiq tələblərə, standartlara, ölçülərə nə dərəcədə uyğun gəlməsini yerinə yetirilən iş və xidmətlərin mükəmməllik səviyyəsinin göstəricisi hesab etmək olar.

Təhsildə keyfiyyət təminatı anlayışı daha qabarıq olaraq XX əsrin ikinci yarısında meydana gəlmişdir. Belə ki, XX əsrin ikinci yarısından başlayaraq elmi-texniki nailiyyətlərin sürətlə inkişaf etməsi, yeni texnologiyaların meydana gəlməsi, texnoloji proseslərin sürətlənməsi təhsilin qarşısında duran əsas tələbləri dəyişməklə bərabər, onun mahiyyət və məzmununun da dəyişilməsini zəruri etmişdir. Yəni bu şəraitdə “oxu-öyrən” ifadəsinə yeni bir məsələ ilə - “öyrəndiklərini tətbiq etməyi bacarmaq”la zəruriləşmişdir. Bu məsələ XXI əsrdə baş verən IV Sənaye İnqilabının nəticələri ilə daha da aktuallaşmış və təhsildə kompetensiyalar (bacarıqlar) ön plana keçmişdir. Bu gün nəinki hazırki zamanın kompetensiyası, hətta beynəlxalq çağırışlarda gələcək dövrün 10-15 ilinə hesablanmış yeni peşə bacarıqları proqnozlaşdırılır [5]. Keyfiyyətin təmin olunması mürəkkəb bir quruluşa malikdir. Yəni burada məsələnin həlli yalnız keyfiyyət anlayışı ilə bitmir. Bu və ya digər sahədə keyfiyyətin təmin edilməsinə kompleks yanaşma tələb olunur. Onun tərkib hissələri olan keyfiyyət siyasəti, daxili keyfiyyət təminatı, xarici keyfiyyət təminatı, keyfiyyətə nəzarət, keyfiyyətin idarə olunması, keyfiyyətin qiymətləndirilməsi, keyfiyyət mədəniyyəti özlüyündə bir şəbəkə təşkil edir. Təbii ki, bu məsələnin icrasına ayrı-ayrılıqda yanaşılma uğursuzluqla nəticələnir. Məsələyə bir qədər ətraflı aydınlıq gətirmək üçün qeyd edilən keyfiyyətlə bağlı anlayışlara qısa izahat vermək qənaətbəxş hesab edilə bilər.

Qeyd etməliyik ki, keyfiyyət siyasəti keyfiyyətin təmin olunmasında başlıca amillərdən biri kimi çıxış edir. Ümumilikdə keyfiyyət siyasətini müəssisənin fəaliyyəti və öhdəliklərinin strateji çərçivəsi kimi başa düşmək olar. Keyfiyyət siyasəti rəsmi olaraq qəbul edilmiş keyfiyyət təminatı sisteminin mühüm tələbi kimi müəyyən edilir. Keyfiyyət siyasəti korporativ məqsədlər və dəyərlər üzərində qurulmalı, təşkilatın keyfiyyət məqsədlərini və hədəflərini müəyyənləşdirməlidir. Başqa sözlə, keyfiyyət siyasəti müvafiq müəssisə və təşkilatın məqsədi, məramı, gələcəyə baxışı, o cümlədən strateji istiqamətlərini ehtiva edən sənəd kimi qəbul edilə bilər. Dünyada iş və xidmətlərin standartlaşması üzrə ən tanınmış təşkilatlardan olan İSO Beynəlxalq Standartlaşma Qurumu da keyfiyyət siyasətini keyfiyyət məqsədləri üçün vahid bir çərçivə olaraq qiymətləndirir və siyasətin standartların tələblərinə, müştərilərin gözləntilərinə cavab vermə, eləcə də mütəmadi təkmilləşdirmə öhdəliyini daşıdığını bəyan edir [6]. Fikrimizcə də keyfiyyət təminatı siyasəti özünüqiymətləndirmə və fəaliyyətin planlaşdırılması prosesləri vasitəsilə davamlı təkmilləşdirməni təmin etməlidir. Təhsildə, xüsusilə ali təhsil sahəsində keyfiyyət siyasəti ali təhsil müəssisələrində keyfiyyət təminatı sistemlərini inkişaf etdirməyə və səmərəliliyinə nəzarət etməyə yönəlmiş keyfiyyət mexanizmi kimi də qəbul edilə bilər. Keyfiyyət siyasəti ali təhsil müəssisələrinin strateji məqsədləri haqqında in-

**AUDİT 2023, 1 (39), səh. 5-12.**
**AUDIT 2023, 1 (39), pp. 5-12.**
**АУДИТ 2023, 1(39), стр. 5-12.**

formasiyaya ehtiyacı olan maraqlı tərəflər üçün faydalı istinad nöqtəsidir. Keyfiyyət siyasəti keyfiyyət təminatı üzrə strategiya hesab edilir. Belə ki, bu siyasət təhsil müəssisəsinin keyfiyyət üzrə strategiyası, keyfiyyət təminatı sisteminin təşkili, keyfiyyətin təmin edilməsi üzrə struktur vahidlərin və şəxslərin öhdəlikləri, siyasətin həyata keçirilməsi, monitorinqi və yenidən işlənməsi yolları kimi mühüm məsələləri özündə cəmləşdirir.

Digər bir keyfiyyət anlayışı isə yuxarıda qeyd etdiyimiz kimi keyfiyyətə nəzarətdir. Bu anlayışa istənilən sahədə rast gəlmək mümkündür. Keyfiyyətə nəzarət məhsulun, yerinə-yetirilən iş və xidmətlərin müəyyən edilmiş standartlara və tələblərə cavab verdiyinə əmin olmaq üçün müəssisə tərəfindən texnoloji proseslərə nəzarət mexanizmidir. Keyfiyyətə nəzarətin iki mühüm məqsədini qeyd etmək olar. Bunlardan birincisi, məhsulların mümkün qədər vahid olmasını təmin etmək, ikincisi isə, onların daxilindəki səhvləri və uyğunsuzluqları minimuma endirməkdir. Keyfiyyətə nəzarət və keyfiyyət təminatı biri-birilə yaxın fəaliyyətlər olsa da, aralarında fərq mövcuddur. Belə ki, keyfiyyət təminatı səhvlərin qarşısını almaqla yerinə yetirilən iş və ya xidmətin standartlara, tələblərə cavab verməsini təmin edir, keyfiyyətə nəzarət isə yerinə yetirilən iş və ya xidmətin inkişafı ilə bağlı problemləri və narahatlıqları müəyyən edir. Keyfiyyətə nəzarət sistemi yüksək standartlı xidməti təmin etməklə işçiləri mükəmməlliyə can atmağa ruhlandırır.

Təhsil müəssisələrində də tədris və təlim prosesində keyfiyyətə nəzarət dedikdə, təlimin aparılmasına dair professor-müəllim heyəti tərəfindən Avropa standartlarının tələblərinə uyğun işlənib hazırlanmış təlimin texnoloji xəritəsinin düzgün icrasına nəzarət kimi başa düşülməlidir. Bu nəzarət mexanizminin hər bir ali təhsil müəssisəsində fəaliyyət göstərən daxili keyfiyyət təminatı qurumu tərəfindən keçirilməsi məqsədəuyğundur.

Hər bir təhsil müəssisəsi keyfiyyətə nəzarət sistemi vasitəsilə məlumatları toplamalı, təhlil etməli, nəticələri qruplaşdırmalı, səhvləri müzakirə üçün kafedralara təqdim etməlidir. Keyfiyyətə nəzarətin bir sıra üstün cəhətləri vardır ki, bunlar keyfiyyət baxımından mühüm təsirlərə malikdir. Məsələn, tədrisdə olan nöqsanları aradan qaldırmaqla tələbə məmnuniyyətini artırır, ziddiyyətləri minimuma endirməklə səmərəliliyi yüksəltmək istiqamətində töhfələr verir.

Keyfiyyətin qiymətləndirilməsi fəaliyyətlərin əvvəlcədən müəyyən edilmiş standartlara və meyarlara uyğunluq dərəcəsinə dair məlumatların toplanması və təhlilindən ibarətdir. Təhsil sistemində qiymətləndirmə qaçılmaz bir prosesdir və müvəffəqiyyətlərin ölçülməsinin ən doğru yoludur. Keyfiyyətin qiymətləndirilməsi təhsil müəssisələrində tədris və təlimin keyfiyyətinə kənar baxış və mülahizələr kimi də başa düşülür.

Ali təhsil müəssisələrində keyfiyyətin qiymətləndirilməsi keyfiyyət təminatı sisteminin əsasında dayanan mexanizmlərdən biri kimi çıxış edir və bu, iki istiqamətdə aparıla bilər. Birincisi, tədris və təlim prosesinin texnoloji xəritə üzrə düzgün qurulması və icrasının qiymətləndirilməsi, ikinci isə, xarici keyfiyyət təminatında olduğu kimi nəticələrin, yəni tələbələrin peşə bacarıqlarına yiyələnməsinin mükəmməllik səviyyəsinin ölçülməsidir. Çünki qiymətləndirmənin nəticələrinə əsasən təhsildə strateji hədəflərə yönəlmiş yeni fəaliyyət və təkmilləşdirmə planları hazırlanmalıdır. Başqa sözlə, keyfiyyətin qiymətləndirilməsinin nəticələri ali təhsil müəssisələrinin strateji inkişaf məqsədlərini müəyyən etmək üçün istifadə olunur. Buna görə də keyfiyyətin qiymətləndirilməsi və keyfiyyətin idarə edilməsi ali təhsil müəssisələrinin strateji inkişafı üçün mühüm alətlərə çevrilməlidir. Keyfiyyət anlayışlarını bir qədər də əlaqələndirsək deyə bilərik ki, keyfiyyətin qiymətləndirilməsi keyfiyyət siyasəti və institusional strategiya üçün əsas təşkil edir.

Keyfiyyətin idarəedilməsi anlayışına gəldikdə isə deyə bilərik ki, bu anlayış daha kompleks yanaşmanı ifadə edir. O, keyfiyyət siyasəti, keyfiyyət təminatı, nəzarət və dəstək mexa-

**AUDİT 2023, 1 (39), səh. 5-12.**
**AUDIT 2023, 1 (39), pp. 5-12.**
**АУДИТ 2023, 1(39), стр. 5-12.**

nizmləri kimi bir-biri ilə əlaqəli amillərdən ibarətdir. Keyfiyyətin idarəedilməsi ümumilikdə keyfiyyətin yaxşılaşdırılmasına yönəlməklə, ali təhsilin keyfiyyətini təmin etmək üçün sistem və ya institusional səviyyədə müntəzəm olaraq həyata keçirilən fəaliyyətlərin, proses və prosedurların məcmusudur. Bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, keyfiyyət idarə-etməsi institusional funksiyadır [7]. Keyfiyyət idarəetməsini mümkün edən mexanizmlərin əsasında isə məhz daxili keyfiyyət təminatı dayanır.

Təhsil mühitində keyfiyyətin idarəedilməsini tədris və tədqiqatların keyfiyyətini qorumaq və daha da yüksəltmək üçün istifadə olunan siyasət və sistemlərlə dəstəklənən proseslər kimi qiymətləndirmək mümkündür.

Keyfiyyət idarəetməsi təhsil proqramlarının təsdiqi, monitorinqi və nəzərdən keçirilməsi mexanizmləri, tələbəyönümlülüyün təmin olunması və tədrisin effektivliyinə dair tələbə sorğularının həyata keçirilməsi, tələbə və müəllim məmnuniyyəti sorğuları, tələbə tədris yükünün qiymətləndirilməsi, tədqiqatların keyfiyyətinin qiymətləndirilməsi, tələbələrin inkişafını və müvəffəqiyyətlərini təhlil etmək üçün göstəricilərin və statistik məlumatların monitorinqi, müəllim heyətinin və tədris-təlim resurslarının keyfiyyətinin təhlili kimi məsələləri və bu məsələlərin icra mexanizmlərini, alətlərini, proseslərini özündə cəmləşdirir.

Keyfiyyət anlayışları içərisində iki mühüm məsələ digərlərinə nisbətən daha böyük əhəmiyyət kəsb etməkdədir və keyfiyyət təminatının həlledici məqamları hesab edilir [8]. Onlardan biri daxili keyfiyyət təminatı, digəri isə xarici keyfiyyət təminatıdır. Daxili keyfiyyət təminatı texnoloji bir prosesin standartlara uyğun aparılmasını xarakterizə edirsə, xarici keyfiyyət təminatı bu prosesin müvafiq standartlara uyğunluğunun mükəmməllik ölçüsünü müəyyənləşdirən bir prosesdir. Daha dəqiq desək daxili və xarici keyfiyyət təminatı özlüyündə tədris-təlim fəaliyyətlərinin müvafiq standartlara uyğunluğuna dair zəmanətdir. Keyfiyyət anlayışının mühüm tərkib hissələrindən biri olan daxili keyfiyyət təminatı geniş mənada yerinə yetirilən iş və xidmətlərin ardıcıllığının səmərəli və prosedur qaydalar üzrə düzgün təşkilini müəyyənləşdirən bir mexanizmdir. Sənayedə bu məsələyə texnoloji xəritə deyilir. Yəni, məhsul istehsalının texnoloji proses qaydalarını müəyyənləşdirən və bu qaydalara nə dərəcədə əməl edilməsinə nəzarət mexanizmi kimi qəbul edilmişdir. Düşünürük ki, müasir tələblər və çağırışlar zəminində daxili keyfiyyət təminatına nail olmaq üçün ilk növbədə təhsil müəssisələrində təlimin texnologiyası dəyişməli, hər bir fənnin spesifik xüsusiyyətlərindən asılı olaraq təlimin texnoloji xəritəsi tərtib edilməklə ona düzgün əməl edilməlidir. Qısa olaraq, daxili keyfiyyət təminatı sistemli proseslər toplusu hesab edilir, desək yanılmarıq. Daxili keyfiyyət təminatı ali təhsil müəssisələrində təhsil keyfiyyətinin və standartlarının universitetdaxili planlanlaması, tətbiq edilməsi, qiymətləndirilməsi və təkmilləşdirilməsi kimi ardıcıl prosesləri də əhatə edir. Daxili keyfiyyət təminatına dair bir sıra təriflər vermək mümkündür. Lakin, ümumilikdə daxili keyfiyyət təminatı təhsil idarəetməsinin əsas bir hissəsi kimi qəbul edilməli, bu da davamlı və sistemli xarakterə malik bir proses olmalıdır. Daxili keyfiyyət təminatının məqsədlərindən biri təhsilin keyfiyyətini, eləcə də göstəricilərini müəyyən etmək, qoruyub saxlamaq və mütəmadi inkişaf etdirməkdir. Ali təhsil müəssisəsinin nəinki tədris-təlim, bütün fəaliyyətlərində keyfiyyətin davamlı olaraq stimullaşdırılması və təkmilləşdirməsi başlıca məqsəd hesab edilməlidir. Ali təhsil müəssisəsində daxili keyfiyyət təminatı sisteminin qurulması keyfiyyətin davamlı olaraq yüksək səviyyədə saxlanmasının aparıcı qüvvəsidir.

Daxili keyfiyyət təminatı ilə yanaşı, xarici keyfiyyət təminatı da keyfiyyət barəsində mövcud olan mühüm anlayışlardan biridir. Daxili keyfiyyət təminatından fərqli olaraq xarici keyfiyyət təminatı bir növ qiymətləndirmə sistemi kimi qəbul edilir. Bir qayda olaraq bu məsələ akkreditasiya qiymətləndirilməsi vasitəsilə həyata keçirilir. Ali təhsil müəssisələrində akkreditasiya qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28

**AUDİT 2023, 1 (39), səh. 5-12.**
**AUDIT 2023, 1 (39), pp. 5-12.**
**АУДИТ 2023, 1(39), стр. 5-12.**

sentyabr tarixli, 167 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na uyğun olaraq 5 ildən bir həyata keçirilir. Lakin, fikrimizcə bu sistemi dünya təhsil sistemində hələ ki, tamamlanmamış bir sistem kimi qəbul etmək olar. Belə ki, Avropa təhsil sistemində və digər inkişaf etmiş ölkələrdə hələ də akkreditasiya qiymətləndirilməsi iki əsas istiqamətə yönəlmişdir. Onlardan biri texniki şərtlərin, yəni təhsil müəssisəsinin institutsional fəaliyyətinin əsasını təşkil edən maddi-texniki baza, tədris-metodik təminat və kadr potensialının müvafiq standartlara uyğun olmasının qiymətləndirilməsi, ikinci istiqamət isə müvafiq sahələr üzrə ixtisas təhsil proqramlarının keyfiyyəti və bu təhsil proqramlarının tərkibinin düzgün müəyyənləşdirilməsi və icrası səviyyəsidir. Əslində isə akkreditasiya qiymətləndirmə sistemi 4 mərhələni əhatə etməklə daha təkmil sistemə çevrilə bilər. Qeyd etdiyimiz kimi, daxili keyfiyyət təminatı tədris-təlim fəaliyyətinin texnoloji prosesinin təşkili kimi başa düşülürsə, akkreditasiya qiymətləndirilməsi bu tədris-təlimin texnoloji prosesinin nə dərəcə keyfiyyətli qurulmasını və hər bir fənnin təlim nəticələrinin əldə edilmə səviyyəsinin qiymətləndirilməsinə yönəldilməlidir. Digər tərəfdən, bugün ali təhsil müəssisələrində bu və ya digər sahədə hazırlanan mütəxəssislərin peşə bacarıqlarını hansısa bir meyarla qiymətləndirmək çətindir. Etiraf etmək lazımdır ki, bir neçə sahədə beynəlxalq səviyyədə müəyyən tələb-təklif nəticəsində keyfiyyətin ölçüləbilən meyarları müəyyənləşdirilmişdir. Məsələn, dil bilikləri sahəsində, o cümlədən "Tərcümə (İngilis dili)" ixtisasında bilik və bacarıqları qiymətləndirmək üçün müvafiq ölçü meyarları müəyyənləşdirilmişdir. Yəni, dil bilikləri sahəsindəki bacarıqları qiymətləndirmək üçün TOEFL, İELTS kimi beynəlxalq sistemlər təkmil hesab edilir. Digər bir sahə olan mühasibat uçotunda tələbə və məzunların bilik və bacarıqlarının müvafiq beynəlxalq standartlara uyğunluq səviyyəsini ACCA F1-F9 sertifikatları vasitəsilə müəyyən etmək və qiymətləndirmək mümkündür. Qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, digər ixtisas istiqamətlərində də məzunların peşə bacarıqlarını müəyyənləşdirmək və qiymətləndirmək üçün müvafiq standartların işlənib hazırlanmasının vaxtı çatmışdır. Əks halda, ali təhsil müəssisələrində hazırlanan kadrlar tərəfindən sonradan müxtəlif kurslar keçməklə peşə bacarıqlarının sertifikatlaşdırılması ali təhsil müəssisələrinə olan inamı getdikcə azaldır. Belə halda bugün bəzi çağırışlarda olduğu kimi, ali təhsil müəssisələrinin öz funksiyalarını itirdiyi ifadəsi öz yerini tapa bilər.

Xarici keyfiyyət təminatının aparılması məsələsinə gəldikdə isə o, rəsmi olaraq qəbul edilmiş yerli və beynəlxalq agentliklər və ya müvafiq sertifikatlaşmış keyfiyyət qurumları tərəfindən təhsil müəssisəsinin tədris-təlim keyfiyyətinin və daxili standartlarının kənar qiymətləndirilməsi və monitorinqi fəaliyyətlərini əhatə edir. Daha dəqiq desək, xarici keyfiyyət təminatı ali təhsil müəssisələrində institusional və yaxud proqram səviyyəsində həyata keçirilən geniş çeşidli fəaliyyətlərlə xarakterizə edilə bilər. Xarici keyfiyyət təminatının yekun məqsədi isə qiymətləndirməni təmin etməklə ali təhsil müəssisələrində hesabatlılığın və keyfiyyətin yüksəldilməsidir. Xarici keyfiyyət təminatı ali təhsil müəssisəsinin hansı mükəmməllik səviyyəsində fəaliyyət göstərməsi barəsində hesabat təmin etməklə, ali məktəbin təklif etdiyi təhsil xidmətlərinin keyfiyyətinə dair müsbət və ya mənfi ictimai rəyin formalaşmasında mühüm rol oynayır. Bir-biri ilə qarşılıqlı əlaqəli olan bu iki anlayış, yəni daxili və xarici keyfiyyət təminatı ali təhsil müəssisələri tərəfindən təşkilati məqsəd və hədəflərə nail olmaq üçün standartlar və göstəricilər müəyyən edilərkən nəzərə alınan əsas fəaliyyətlərdir.

Keyfiyyət haqqında danışarkən son olaraq bir anlayışı – keyfiyyət mədəniyyətini xüsusilə vurğulamaq yerinə düşərdi. Bu anlayışı qeyd etdiyimiz bütün keyfiyyət anlayışlarının yekununun ümumi səviyyəsini xarakterizə edən anlayış anlandırmaq olar. Keyfiyyət mədəniyyəti keyfiyyəti yüksəldən ümumi dəyərlər, məsuliyyətlər və öhdəliklərin cəmi kimi başa düşülə bilər [9]. Yəni, keyfiyyət mədəniyyəti keyfiyyətin qurulmasına şərait yaradan və əlveriş-

**AUDİT 2023, 1 (39), səh. 5-12.**
**AUDIT 2023, 1 (39), pp. 5-12.**
**АУДИТ 2023, 1(39), стр. 5-12.**

li iş mühitini təmin edən təşkilati dəyərlər sistemidir. Yüksək səviyyəli institusional keyfiyyət qiymətləndirilməsi mexanizmlərinin yaradılması və nəticələrin davamlı şəkildə təkmilləşdirilməsi də məhz keyfiyyət mədəniyyətindən asılıdır. Keyfiyyət mədəniyyəti təhsil müəssisəsinin gündəlik iş fəaliyyətində keyfiyyət təminatını birbaşa olaraq inkişaf etdirmək bacarığı kimi də nəzərdən keçirilə bilər və ali məktəbdə keyfiyyət təminatı elementlərinin daim diqqət mərkəzində saxlanılmasını xarakterizə edir.

Qeyd edilənlər onu deməyə əsas verir ki, keyfiyyət mədəniyyəti müəssisədaxili bir yanaşmadır və davamlı keyfiyyət sistemi yaratmağa çalışan bir fəaliyyətdir. Əgər keyfiyyət mədəniyyəti ümumilikdə ali təhsil müəssisəsi və ya onun ayrı-ayrı struktur vahidləri tərəfindən dərindən mənimsənilib düzgün həyata keçirilərsə, bu zaman xarici keyfiyyət təminatı prosedurlarının həddən artıq cəlb edilməsinə zərurət olmadan təhsilin keyfiyyətini yüksəldə bilən mexanizmlər və üsulların effektivliyindən danışmaq olar. Ümumilikdə təhsil müəssisəsinin hər hansı vəzifələrinin yerinə yetirilməsində keyfiyyət mədəniyyətinin təmin olunması bu prosesdə iştirak edən bütün professor-müəllim heyətinin qarşılıqlı əməkdaşlığı, bərabər öhdəlik və məsuliyyət hiss etməsi və buna adekvat olaraq fəaliyyət göstərməsi ilə mümkün ola bilər.

## YEKUN

Qeyd etdiyimiz kimi ölkəmizdə təhsilin inkişafı üzrə islahat xarakterli bir sıra ciddi addımlar atılmışdır. Lakin qlobal səviyyədə müşahidə edilən sürətli dəyişikliklər və meydana gələn yeni tendensiyalar təhsildə də islahatların və təkmilləşmələrin davamlı olmasını daha da zəruriləşdirir. Belə şəraitdə cəmiyyətin və əmək bazarının müasir tələblərinə cavab verən, peşə bacarıqlarını yüksək səviyyədə mənimsəyən tələbə və məzunların hazırlanması mühüm vəzifə kimi qarşıda dayanır. Bunun üçün ali təhsil müəssisələrində keyfiyyət təminatına kompleks yanaşılmalı və xüsusilə Avropa standartlarına uyğun olaraq tədris-təlim texnologiyası dəyişməlidir. Yeni tədris-təlim texnologiyaları isə bilavasitə hər bir fənnin özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla texnoloji xəritənin hazırlanmasını tələb edir. Belə ki, bir-birilə qarşılıqlı əlaqəli, məntiqi ardıcıllıqla müəyyən edilmiş tədris prosesi təhsilalanlarda biliyin tətbiq edilməsi bacarıqlarının formalaşmasında və təhsilin keyfiyyəti-nin yüksək səviyyədə təmin edilməsində həlledici funksiya yerinə yetirir.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. https://www.e-qanun.az/
2. https://edu.gov.az/az/news-and-updates/9362
3. https://president.az/az/articles/view/52160
4. https://dp.edu.az/az/faq
5. “OECD Future of Education and Skills 2030, Conceptual learning framework”, OECD, 2019
6. https://the9000store.com/iso-9001-2015-requirements/iso-2015-requirements-for-leadership/quality-policy/
7. “Quality management in higher education: Developments and drivers. Results from an international survey”, UNESCO, 2017
8. “Internal and External Quality Assurance in Higher Education”, Vytautas Magnus University, Centre for Quality of Studies.
9. “Quality management — Guidance to understand, evaluate and improve organizational quality culture”, ISO 10010:2022

**AUDİT 2023, 1 (39), səh. 5-12.**
**AUDIT 2023, 1 (39), pp. 5-12.**
**АУДИТ 2023, 1(39), стр. 5-12.**

*Ibad Musa Abbasov,*
*D.Sc.(Econ.), Professor,*
*Baku Business University,*
*E-mail:rektor@bbu.edu.az;*
*Javidan Rasul Heydarov, Ph.D. Student,*
*Baku Business University,*
*E-mail: javidanheydarov@gmail.com*
*© I.M.Abbasov, J.R. Heydarov, 2023*

## QUALITY IN EDUCATION IN THE POLICY OF HEYDAR ALIYEV

### A B S T R A C T

The purpose of the study is to provide quality education in the education system of our country, especially in the higher education system, and to determine ways to integrate into the world education system, taking into account the global processes taking place in the world and digital technologies resulting from the IV industrial revolution, as well as new requirements of the business world. and international communities to professional skills designed for the distant future in this direction.

**Keywords:** quality assurance in higher education, internal quality assurance, external quality assurance, teaching technology, professional skills.

*Аббасов Ибад Муса оглы,*
*доктор экономических наук, профессор,*
*Бакинский Университет Бизнеса,*
*E-mail:rektor@bbu.edu.az;*
*Гейдаров Джавидан Расул оглы,*
*докторант,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: javidanheydarov@gmail.com,*
*© Аббасов И.М., Гейдаров Дж.Р., 2023*

## КАЧЕСТВО ОБРАЗОВАНИЯ В ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА

### Р Е З Ю М Е

Целью исследования является обеспечение качественного образования в системе образования нашей страны, особенно в системе высшего образования, и определение путей интеграции в мировую систему образования с учетом глобальных процессов, происходящих в мире и цифровых технологий, являющихся результатом IV промышленной революции, а также новых требований делового мира и международных сообществ к профессиональным навыкам, рассчитанным на отдаленное будущее в этом направлении.

**Ключевые слова:** обеспечение качества в высшем образовании, внутреннее обеспечение качества, внешнее обеспечение качества, технология обучения, профессиональные навыки.

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.02.2023*
*Təkrar işləməyə göndərilmişdir: 24.02.2023*
*Çapa qəbul olunmuşdur: 06.03.2023*

*Дата поступления статьи в редакцию: 13.02.2023*
*Отправлено на повторную обработку: 24.02.2023*
*Принято к печати: 06.03.2023*

*The date of the admission of the article to the editorial office: 13.02.2023*
*Send for reprocessing: 24.02.2023*
*Accepted for publication: 06.03.2023*